*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 9 iyul 2016-cı il № 52 (2067) Qiymıəti 25 qəpik


# Ordumuzun döyüş ruhu yüksəkdir

## Müdafiə Nazirliyinin rəhbərliyi cəbhə bölgəsində yerləşən hərbi hissələrdə olub

**Ramazan bayramı münasibətilə Müdafiə Nazirliyinin rəhbərliyi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, cəbhə bölgəsində yerləşən hərbi hissələrdə olub. Müdafiə Nazirliyi Mətbuat Xidmətinin verdiyi məlumata görə, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov müdafiənin ön xəttindəki mövcud vəziyyətlə, döyüş hazırlığı, döyüş növbətçiliyinin yüksək səviyyədə təşkili və aparılması, o cümlədən hərbi qulluqçuların mənəvi-psixoloji durumu, sosial-məişət şəraiti ilə maraqlanıblar.**

General-polkovnik Zakir HƏSƏNOV:

*Silahlı Qüvvələrin hərbi qulluqçusu dövlətə sadiq olmalı, Vətənə və torpağa sevgi, düşmənə nifrət hissi ilə xidmət etməlidir.*



Məlum olduğu kimi, Müdafiə naziri general-polkovnik Zakir Həsənov Ermənistan silahlı birləşmələrilə təmas şəraitində döyüş növbəsi aparan hərbi hissələrimizdə vəziyyəti öyrənmək üçün tez-tez döyüş bölgələrinə səfər edir. Təkcə onu qeyd etməyə dəyər ki, iyulun ilk günlərindən bu yana ordu rəhbərliyi artıq bir neçə dəfə cəbhə bölgəsinə gedib. Öncə Müdafiə naziri yeni tikilmiş hərbi hissənin açılışı mərasimində iştirak etmiş və daha bir hərbi hissədə aparılan tikinti işlərinin gedişilə yaxından tanış olmuşdu. Silahlı Qüvvələrimizin təminat və təchizatını müasir tələblər səviyyəsinə qaldırmaq məqsədilə görülən işlər, sözün əsl mənasında, ordumuzun dövlət qayğısı ilə əhatə olunduğunu, güc və potensialını xeyli artırdığını əyani surətdə nümayiş etdirir.

İyunun 25-də Bakının Xətai rayonunda inşa edilmiş yaşayış binasında hərbçilərə yeni mənzillərin təqdim edilməsi mərasimində çıxışı zamanı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu gün ordumuzun maddi-texniki təchizat baxımından güclü ordular sırasında olduğunu, son illər ərzində əldə etdiyimiz texnika, silah-sursatın ən yüksək standartlara cavab verdiyini bildirdi və qürur hissilə vurğuladı: "Ordu quruculuğu prosesi, təbii ki, təkcə maddi-texniki təminatla məhdudlaşmır. Döyüş qabiliyyəti, əsgər-zabit heyətinin mənəvi-psixoloji durumu mühüm yer tutur. Mən tam əminliklə deyə bilərəm ki, bu baxımdan Azərbaycan Ordusu güclü ordular sırasındadır. Döyüş qabiliyyəti artır, orduda mənəvi-psixoloji vəziyyət çox müsbətdir, vətənpərvərlik ruhu, nizam-intizam yüksək səviyyədədir. Əlbəttə, bütün bu amillər bizim hərbi gücümüzü daha da artırır. Mən son illər ərzində dəfələrlə qeyd etmişəm ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və aprel döyüşləri bunu bir daha sübut etdi. Bütün dünyaya sübut etdi ki, bu gün Azərbaycanla hesablaşmaq lazımdır."

(Ardı 2-ci səhifədə)



"Dağ qartalları" döyüşə hər an hazırdır

3-cü səhifədə



İşğala son qoyulacaq

4-cü səhifədə



Mənəvi-psixoloji hazırlıq döyüş təminatının tərkib hissəsidir

6-cı səhifədə



Vətən boyda sevgi

8-ci səhifədə

AZƏRBAYCAN ORDUSU

# Ordumuzun döyüş ruhu yüksəkdir

## Müdafiə Nazirliyinin rəhbərliyi cəbhə bölgəsində yerləşən hərbi hissələrdə olub

(Əvvəli 1-ci səhifədə)

Azərbaycan Ordusunun böyük bir kontingenti bu gün həm düşmənlə üzbəüz ərazilərdə təmas şəraitində döyüş növbəsi aparır, həm də Müdafiə Nazirliyinin təsdiq etdiyi döyüş hazırlığı planına uyğun olaraq, məşğələ və təlimlərdə iştirak edir, peşə bacarıqlarını artırır.

Cəbhə bölgəsində yerləşən hərbi hissələrdə olarkən səngərlərə baş çəkən ordu rəhbərliyi döyüş növbətçiliyinin təşkili ilə bilavasitə yerində tanış olub, eyni zamanda bayram günlərində düşmənlə üzbəüz postlara gedərək Vətənimizin müdafiəsində dayanmış cəsur Azərbaycan oğullarının əhval-ruhiyyəsilə maraqlanıb və onları müqəddəs Ramazan bayramı münasibəti ilə səmimi təbrik edib. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun bilavasitə təmas xəttində döyüşçülərlə görüşüb onların vəziyyətilə yaxından maraqlanması əsgərlərimizin döyüş ruhuna olduqca müsbət təsir göstərib.





Təsadüfi deyil ki, döyüş hazırlığının və nizam-intizamın gücləndirilməsi, silah-sursatla, hərbi texnika ilə davranışda təhlükəsizlik qaydalarına ciddi əməl edilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması və sağlamlıqlarına diqqətin artırılması, o cümlədən hərbi hissələrin ərazisində aparılan quruculuq işlərinin davam etdirilməsi ön mövqelərdə döyüş növbətçiliyinin yüksək səviyyədə təşkili üçün yetərincə vacib amillərdəndir.

Ona görə bu məsələlər, o cümlədən hərbi hissələrdə əməliyyat şəraiti və döyüş hazırlığı tədbirlərinin keçirilmə vəziyyəti bu dəfə də ordu rəhbərliyinin diqqət mərkəzində idi.

Aprel ayının ilk günlərində təmas xəttində Ermənistan ordusu kontingentinin törətdiyi təxribat və bölmələrimizin sərt cavabı göstərdi ki, Azərbaycan Ordusu bu gün möhkəm döyüş hazırlığına malikdir və ön xətdə döyüş növbətçiliyi yüksək səviyyədə təşkil edilib. Həmin hadisələrlə bağlı Silahlı Qüvvələrin Baş Qərargahının yeni inzibati binasında xüsusi təyinatlı təhsil müəssisələri rəhbərləri və bir qrup məzunun iştirakı ilə iyunun 27-də keçirilən görüş zamanı Müdafiə nazirinin səsləndirdiyi fikirlər diqqətəlayiqdir.

Cəbhə xəttində baş verən qarşıdurmaya toxunan general-polkovnik Zakir Həsənov qeyd etmişdi ki, hadisələr dövlətimizin, xalqımızın qüdrətini, Azərbaycan əsgərinin silahının gücünü, onun döyüş və mənəvi-psixoloji hazırlığını bir daha nümayiş etdirdi. Qısa müddətdə həyata keçirilən əks-həmlə nəticəsində işğal altında olan vacib əhəmiyyətə malik yüksəkliklər azad edildi. Bu döyüşlərdə Silahlı Qüvvələrimizin şəxsi heyətinin fəaliyyətinə ən yüksək qiyməti Ali Baş Komandan cənab İlham Əliyev verdi."

Görüş zamanı Müdafiə nazirinin gənc zabitlərə müraciətlə dediyi sözlər, əslində, ordumuzun bütün şəxsi heyətinə ünvanlanıb: "Silahlı Qüvvələrin hərbi qulluqçusu dövlətə sadiq olmalı, Vətənə və torpağa sevgi, düşmənə nifrət hissi ilə xidmət etməlidir. Dövlətimiz və xalqımızın etimadını doğrultmaq üçün durmadan peşəkarlıq səviyyənizi, bilik və bacarığınızı artıraraq düşməndən üstün olmalı və torpaqlarımızın işğaldan azad edilməsi üçün silahınızı daim hazır saxlamalısınız."





Şübhəsiz, hər bir ordunun gücü təkcə silah və texnikanın keyfiyyət və sayından ibarət deyil. Eyni zamanda həmin silah və texnikanı hərəkətə gətirən, döyüş meydanında peşəkarlıqla idarə edən, yüksək döyüş qabiliyyətinə, ən başlıcası isə, möhkəm mənəvi-psixoloji hazırlığa malik şəxsi heyətin, zabit və əsgərlərin olması zəruridir. Döyüş növbəsi çəkən əsgər və zabitlərlə görüşlər keçirən general-polkovnik Zakir Həsənov onlara öz dəyərli tövsiyələrini verib. Döyüşçülərin mənəvi-psixoloji durumu, onların sosial şəraiti, zabit və gizir heyətinin hazırlıq səviyyəsi, hərbi birləşmələrin maddi-texniki təchizatının vəziyyəti Müdafiə naziri general-polkovnik Zakir Həsənovda xoş duyğular oyadıb.

Bayram münasibəti ilə şəxsi heyəti təbrik edən Müdafiə naziri onların bundan sonra da Azərbaycan Respublikası Konstitusiyasına, hərbi anda və nizamnamələrə sadiq qalaraq ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi, torpaqlarımızın işğaldan azad olunması naminə xidməti vəzifələrini şərəf və vicdanla yerinə yetirəcəklərinə, döyüş hazırlığı səviyyəsinin daha da artırılmasında səylə çalışacaqlarına əminliyini ifadə edib, hərbi qulluqçulara möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və xidmətdə uğurlar arzulayıb.

General-polkovnik Zakir Həsənov, eyni zamanda müdafiə xəttinin təkmilləşdirilməsi və ön xətt bölmələrində döyüş qabiliyyətinin yüksəldilməsi ilə əlaqədar zabit heyətinə müvafiq tapşırıqlar verib.

Sonda Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov əsgər yeməkxanasına baş çəkib və döyüşçülərlə birlikdə nahar edib, ön xətdə döyüş növbəsi çəkən hərbi qulluqçularla çay süfrəsi arxasında söhbət aparıblar. Ordu rəhbərliyinin Ramazan bayramı günlərində cəbhə bölgəsinə gələrək şəxsi heyətin qayğıları ilə maraqlanması və onları səmimi duyğularla təbrik etməsi zabit və əsgərlərin ovqatına böyük təsir göstərib, onları xidməti vəzifələrini və döyüş növbətçiliyini daha səylə yerinə yetirməyə ruhlandırıb.

**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Vüsal HƏMİDOVUNDUR**

*Ön xətdən reportaj*

# "Dağ qartalları" döyüşə hər an hazırdır

***Yolumuz düşmənlə ön mövqelərdə yerləşən taborlardan birinədir. Burada cəbhə xətti dağlıq ərazilərdən keçib sıldırım qayaları, çayları, gölləri, yamyaşıl meşələri, yamacları əhatə edir. Cəbhə xəttinin ən hündür mövqeyi üç min metr yüksəklikdə olan zirvəsindədi. Başı dumanlı-çiskinli dağların əzəmətli görünüşü yerlə göyün harmoniyasını yaradır... Kür çayının sağ qolu olan, mənbəyini Murovdağ silsiləsinin şimal yamacından götürən Kürəkçay iki əsrdən çoxdur ki, qəmgin-qəmgin, səmtini dəyişmədən axır...***



Zirvələrin üzünə sanki dumandan namnazik tül çəkilib... Bu zirvələrdə Vətənimizin qeyrətli, mərd oğulları dağlardan səngər qurublar.

Maşın dayaq məntəqələrinin yerləşdiyi əraziyə sarı istiqamət alır. Bizi müşayiət edən zabitdən öyrənirəm ki, əsgər təhlükəli yolları ovcunun içi kimi tanıyır. Peşəkar sürücü kimi bu yollara yaxşı bələddi...

Mövqeyə yaxınlaşırıq. Ordumuzun zirehli geyimdə dağ vüqarlı oğullarını - əyilməz, sədd keçilməz dağların məğlubedilməz "qartallarını" görüb qürur hissi keçirirəm...

Bizi zabit Aqil Cəfərov qarşılayır. O deyir ki, Silahlı Qüvvələr Günü ilə bağlı bir qrup incəsənət və mədəniyyət işçisi burada maraqlı konsert proqramı təşkil etdilər. Bir saat əvvəl gəlsəydiniz, dağın başında necə çal-çağırı siz də görərdiniz. "Cəngi" dağlarda əks-səda verirdi. Arzu edirəm ki, gələn il Silahlı Qüvvələr Gününü gözəl Şuşamızda, Cıdır düzündə bu ovqatla qarşılayaq, qələbələrimizi bayram edək. Zabit A.Cəfərov Yardımlı rayonunda anadan olub. Hələ kiçik yaşlarından hərbçi olacağını, forma geyinəcəyini arzulayıb. Orta məktəbi əla qiymətlərlə başa vuran Aqil sənədlərini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə verib, qəbul olunub. Qəlbən bağlandığı hərbçi peşəsinin sirlərinə dərindən yiyələnib. Təhsilini başa vuran Aqil hazırlıqlı zabit kimi döyüş bölgəsində xidmətə başlayıb. Türkiyə Respublikasının İqdır şəhərində keçirilən təlimlərdə böyük təcrübə qazanıb.

Zabit ordumuzun aprel döyüşlərindəki qələbələrindən danışır: "Qazandığımız qələbələr əsgər və zabitlərimizdə böyük ruh yüksəkliyi yaratdı. Zabitlərimizin vətənpərvərliyi, peşəkarlığı, düşmənə endirdikləri əks-həmlə zərbələri göstərdi ki, ermənilərin işğalında olan torpaqlarımızı azad etmək üçün Ali Baş Komandanın əmrini hər an yerinə yetirməyə qadirik."

Sonra dağ şəraitində xidmət aparmağın çətinliklərini bacarıqla dəf edən gənc zabitlərimizin söhbətlərini böyük maraqla dinləyirəm.

Kapitan Nahid Abdullayev Neftçala rayonunda doğulub. Zabit peşəkarlığına ön xətdəki xidməti sayəsində yiyələndiyini deyən (Naxçıvan Muxtar Respublikasının Sədərək-Ordubad istiqamətindəki ön mövqelərdə çətin dağ şəraitində xidmət edib - L.H.) zabit qəlbinin istəyi ilə bağlandığı hərb sənətinin şərəfliliyindən danışır: "Dünyada ən müqəddəs varlıq anadır. Vətənimizə, torpağımıza ana deyirik. Vətən, torpaq müqəddəsliyini qorumaq da hərbçinin peşə borcudur. Biz müqəddəs zabit peşəsinə yiyələnən zaman içdiyimiz hərbi anda həmişə sadiqik. Torpaqlarımızın azadlığı uğrunda böyük qələbə naminə Ali Baş Komandanın əmri ilə döyüşlərə atılmağa hər an hazırıq."

Söhbətimi Vətən qarşısında xidməti vəzifəsini on ildir ki, döyüş bölgələrində layiqincə yerinə yetirən baş leytenant Şəmməd İsmayılovla davam etdirirəm. C.Naxçıvanski adına Hərbi Liseyi bitirdikdən conra təhsilini Heydər Əliyev adına Ali Hərbi Məktəbdə davam etdiriyini deyən gənc zabit ordumuzun aprel qələbələrindən, hərbçilərimizin göstərdiyi qəhrəmanlıqlarından, bunların onlara nümunə olmasından danışdı. "Xalqımız illərdir ki, müharibə şəraitində yaşayır, atəşkəs olmasına baxmayaraq, düşmən təmas xəttində silahlı təxribatlar törətməklə vəziyyəti gərginləşdirməyə çalışır. Ordumuzun bölmələri hər zaman erməni işğalçılarının mövqelərinə qətiyyətli cavab zərbələri endirir. Biz şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlıqlarını daima artırırıq. Onlara Mübarizin, Fəridin, Muradın, Samidin və başqa qəhrəmanlarımızın ömür yolundan, hərbi xidmətlərindən danışırıq."



Aprel döyüşlərində vəzifə borcunu layiqincə yerinə yetirən gənc zabitlərimizdən biri də tibb taqımının komandiri leytenant Ramiz Xammədov olub. Öyrənirəm ki, o, Talış, Tapqaraqoyunlu istiqamətində aparılan əks-zərbə əməliyyatlarında yaralılarımızın təxliyyə olunmasında fəal iştirak edib.

Əsgər Təbriz Əliyev bu günlərdə hərbi xidmətini başa vurub doğma Yardımlıya qayıdır. Komandirlərindən, əsgər yoldaşlarından, on səkkiz ay xidmət etdiyi bu dağların qoynundan ötrü çox darıxacağını deyir Təbriz.

- Aprel döyüşləri bizi də ağır sınağa çəkdi. Həmin günlərdə bizim taborun əsgərləri döyüşlərə atılmağa hazır idilər. Azərbaycan əsgəri bu sınaqdan üzüağ, alnıaçıq çıxdı. Torpaqlarımız uğrunda döyüşə, düşməni məhv etməyə mən də hazıram.

Əsgərlərdən Nicat Nuruşov, Maqsud Süleymanov, Yusif Mirzəyev, Heybət İbrahimov, Şahin Əlizrayev və başqaları da bildirdilər ki, torpaqlarımızın bir qarışını da düşməndə qoymayacağıq. Ruhin kimi, Samir kimi, Fəxrəddin kimi, Mahir kimi şəhidlərimizin ruhu bizi bağışlamaz. Hər an, hər dəqiqə Ali Baş Komandanımızın hücum əmrini gözləyirik.

**Lalə HÜSEYNOVA, "Azərbaycan Ordusu", fotolar M.MÖHBALIYEVİNDİR**

## "Azərbaycan Ordusunun Ağdam istiqamətində guya təxribat törətməsi barədə Ermənistan KİV-in məlumatı dezinformasiyadır"

Ermənistanın kütləvi informasiya vasitələrinin iyulun 8-nə keçən gecə cəbhənin Ağdam istiqamətində guya Azərbaycan Silahlı Qüvvələri bölmələrinin təxribat törətməsi barədə yaydığı məlumat həqiqətə uyğun deyil və dezinformasiya xarakteri daşıyır.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Ermənistanda hökm sürən qeyri-sabit siyasi vəziyyətdən ölkə ictimaiyyətinin fikrini yayındırmaq məqsədi güdən Ermənistan rəhbərliyi bu cür dezinformasiya xarakterli məlumatları yaymaqla cəbhədəki vəziyyəti növbəti dəfə gərginləşdirməyə cəhd göstərir.

"Əvvəllər də bəyan etdiyimiz kimi, Azərbaycan tərəfi atəşkəs rejiminə sadiq qalaraq yalnız düşmən təxribatının qarşısının alınması tədbirlərini həyata keçirir", - deyə nazirliyin məlumatında qeyd edilir.

Müdafiə Nazirliyi bir daha bildirir ki, cəbhəboyu əməliyyat şəraiti Silahlı Qüvvələrimizin tam nəzarəti altındadır, düşmənin ön xətdəki istənilən təxribatının qarşısı bundan sonra da qətiyyətlə alınacaq. Baş verə biləcək bütün hadisələrə görə isə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşəcək.

## Ermənistanın təbliğ etdiyi faşizm ideologiyasına qarşı mübarizə aparılmalıdır

Azərbaycan Slavyan Gəncləri Assosiasiyasının Rusiya nümayəndəliyi Prezident Vladimir Putinə, Rusiya Liberal Demokrat Partiyasının sədri Vladimir Jirinovskiyə, Dövlət Dumasının deputatı Gennadi Züqanova, Rusiya Veteranlar Şurası Təşkilatına, "Rusiya zabitləri" Ümumrusiya İctimai Təşkilatına məktub ünvanlayıb.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, məktubda faşist generalı, Njde kimi tanınan Qaregin Ter-Arutunyana Ermənistan paytaxtında heykəl qoyulması ilə bağlı narahatlıq ifadə olunub. Rusiyanın təşəbbüsü ilə BMT Baş Assambleyası tərəfindən qəbul edilən, nasizm, irqçilik, ksenofobiya və dözümsüzlüyü pisləyən qətnamələr xatırladılıb. Bildirilib ki, qətnamələrə qoşulan Ermənistan faşist rejiminə sədaqət andı içən şəxsi qəhrəmana çevirir, onun təbliğatını aparır.

"Biz Ermənistanın bu kimi fəaliyyətindən, faşizmə qalib gəlmək uğrunda həlak olan insanların xatirəsinə göstərdikləri hörmətsizlikdən hiddətlənirik. Ümid edirik ki, siz bu işi nəzarətinizə götürəcəksiniz və hər zaman olduğu kimi, Böyük Vətən müharibəsində həlak olan insanların əziz xatirəsinə hörmət göstərərək Ermənistanın təbliğ etdiyi faşizm ideologiyasına qarşı mübarizə aparacaqsınız", - deyə məktubda qeyd olunub.

Rusiyada fəaliyyət göstərən Azərbaycan Mədəniyyətinin İnkişafı və Dirçəlişi Fondu da yuxarıda qeyd edilən ünvanlara Yerevanın mərkəzində Njde Qaregin abidə qoyulmasına etiraz bildirilən məktub göndərib.

Məktubda abidənin açılış mərasimində Ermənistan rəhbərliyinin iştirakı, Ermənistan hökumətinin faşizm ideologiyasını açıq-aşkar təbliğ etməsi qınanılıb. Beynəlxalq ictimaiyyətin faşizmin bütün təzahürlərini pislədiyi bir vaxtda Ermənistanın dünyaya açıq-aşkar meydan oxuduğu diqqətə çatdırılıb. "Biz Rusiya rəhbərliyindən, təşkilat və birliklərdən xahiş edirik ki, mövcud faktı qınasınlar və faşizmin davamçılarının bu hərəkətinə son qoymaq üçün tədbirlər görsünlər", - deyə məktubda qeyd olunub.

# İşğala son qoyulacaq



***Düşmənlə üz-üzə dayanan əsgərin bir məqsədi, bir amalı var: işğal altında olan torpaqları azad etmək. Zamanında özüm cəbhə bölgəsində xidmət etmişəm. Səngər həyatıma yaxşı bələdəm.***



Bu dəfə getdiyim mövqelər tamam fərqli idi. Bura aprel döyüşlərinin ən qaynar yeri olmuşdu. Ərazi mənə doğma-dan-doğma idi: ikinci Qarabağ müharibəsində bu yerlərdə ermənilərə qarşı döyüşmüşdüm. Bir qədər əvvəl aşıb gəldiyim mövqelərdə bir neçə il xidmətdə olmuşdum. On beş il əvvəli isə yaxşı xatırlayıram. Bir gün qarşımızda dayanan düşmənin "canlandığını" gördük. Onlar postların qarşısında mövqe boyu dirəklər basdırıb tikanlı məftil çəkirdilər. O zaman bunun qarşısını almağa çalışsaq da, mümkün olmadı. Bu, bizə son dərəcə ağır gəlirdi... İllər sonra köhnə postları, həmin o tikanlı məftillərlə əhatələnən, aprel döyüşlərində əsgərlərimizin dağıtdığı postu adlayıb qarşıdakı təpəyə çıxanda ürəyim dağa döndü. Bir anlıq həmin həyəcan dolu günlər gözlərimin önünə gəldi. Buna sevindim, ordumuzun qüdrətindən qürur duydum...

Zabit Pərviz Pirməmmədovla söhbətləşirəm. Yeni qazılmış səngərlər dərin və döyüş aparmaq üçün hazır vəziyyətdədir. Zabit olduğu yerdən bölmələri rahat idarə edir. Ona tez-tez müşahidə məlumatı çatdırılır.

Həmsöhbətim təcrübəli, hərb işini mükəmməl bilən zabitdir. "Aprel döyüşlərinə qədər bu yüksəkliklər düşmənin əlində idi. Düşmən buradan müntəzəm olaraq mövqelərimizi və Tapqaraqoyunlu kəndini atıcı silahlardan atəşə tuturdu. Sakinlərin təsərrüfatına ciddi ziyan vururdu. Sonuncu döyüşlərdən əvvəl ermənilər daha da fəallaşaraq artilleriya silahlarından istifadə etməyə başlamışdı. Geri çəkilmək, atəşi dayandırmaq istəmirdi. Vəziyyət getdikcə ciddi xarakter alırdı. Düşmənin indi isə bizim olan mövqelərə doğru əks-hücuma keçdik. Əməliyyat uğurlu alındı. Düşməni yerində məhv edib daha əhəmiyyətli yüksəkliklərə doğru irəlilədik. Olduğumuz təpələrdə dayanıb müdafiə qurduq. Məğlub olan düşmən əvvəlki mövqeləri qaytarmaq üçün dəfələrlə əks-hücumlar təşkil etdi. Əsgərlərimiz sərrast atəşlə düşmənə neytral zonadan irəliləməyə imkan vermədi...

Bir qədər aralıda yerləşən posta gedirik. Səngərlər dərin qazılıb. Şəxsi heyətin gedişgəlişinə düşməndən heç bir təhlükə yoxdur. Üstüörtülü uzunmüddətli atəş nöqtələrindən açılan mazğallar düşməni susdurmaq üçündür. Buradan qarşıdakı düşməni aydın müşahidə etmək olur. Əsgərlər bir neçə istiqamətdə fasiləsiz müşahidə aparır.

Kapitan Elməddin İmanovla daha bir posta çatırıq. Bizi zabit Vaqif Abdullayev qarşılayır. O, dayaq məntəqəsində heç bir dəyişikliyin olmadığını bildirdi. Vaqifi dərhal tanıdım. Bir il əvvəl onunla köhnə mövqelərdə görüşmüşdüm. Vaqif Abdullayev C.Naxçıvanski adına Hərbi Liseyi bitirəndən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2008-ci ildə hərbi məktəbi "motoatıcı" ixtisası üzrə bitirib. O, zabit kimi cəbhə bölgəsində hərbi xidmətə başlayıb. Biliyi, bacarığı və yüksək idarəçilik keyfiyyətləri onun daha yuxarı vəzifələrə təyin olunmasına yol açıb. Əsgərlərin döyüş hazırlığının elmi əsaslarla artırılmasına çalışıb.

Aprel döyüşlərində komandiri olduğu bölmə ilə hazırkı mövqelərin düşməndən azad edilməsində zabit Vaqif Abdullayevin xidmətləri çox olub.

Manqa komandiri Emil Cəfərov Goranboydan, Ələddin Rəcəbli Lerikdən, Sahib Musayev Sabirabaddan, Elvin İsmayılov Qubadan, Anar Barxalov Zaqataladan, Ozan Hüseynov Tovuz rayonundandırlar. Onlar düşmənlə üz-üzə mövqelərdə ayıq-sayıq dayanıblar. Döyüşçülərin hər birinin üzündə məğrurluq duyuram.

Onlar "Başlıca niyyətimiz torpaqlarımızı işğaldan azad etməkdir. Ali Baş Komandanın əmrinə hazırıq. O günün həsrətindəyik", - deyirlər. "Vaxt vardı indi olduğumuz yüksəkliklərə ancaq uzaqdan həsrətlə baxırdıq. İndi isə bu təpələrdən uzanan hər dərə, hər yamac bizi irəliyə səsləyir. Neçə illər idi bu yerlər ayaq səsimizə həsrət qalmışdı. İndi burdayıq...".

Azərbaycan əsgərinin rəşadəti işğala son qoyacaq!..

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***7 iyul 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 12 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan, İcevan rayonunun Berkaber və Vazaşen kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Qızılhacılı və Bala Cəfərli kəndlərində, Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Hacıalılı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz və Aşağı Seyidəhmədli kəndləri yaxınlığında yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***8 iyul 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 18 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber, Noyemberyan rayonunun Dovex, Barekamavan və Voskepar kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Kəmərli, Qaymaqlı və Quşçu Ayrım kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Şirvanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.



# Sərrast tuşlayıcı

Tovuza çatanda artıq hava işıqlanmışdı. Dağların təmiz havası və səhər mehi üzümə vurduqca ruhum təzələnirdi. Bu gözəl hava sanki əsgərlərimizlə görüşün maraqlı keçəcəyinin müjdəçisi idi.

Çətin keçilən yollarla Vətən müdafiəçilərinin yanına çatırıq.

Bölmədə nümunəvi xidməti və nizam-intizamı ilə seçilən tuşlayıcı əsgər Mehman Şirinovla həmsöhbət oluram.

Əsgər Mehman Şirinov hərbi xidmətə Ağcabədi rayonundan çağırılıb. Döyüşçü deyir ki, tuşlayıcı vəzifəsinə hədəfləri dəqiq və sərrast vurduğu üçün təyin olunub. İlk dəfə silahı əlinə alanda hər şey ona çətin gəlirdi. Əsgər indi silahının xüsusiyyətlərini öyrəndiyi və atıcılıq vərdişləri qazandığı üçün fəxr hissi duyduğunu söyləyir.

"Hər döyüş növbətçiliyinə çıxanda silahımla baş-başa qalır, düşməndən etdiklərinə görə qisas alacağıma söz verirəm. Vətənə bağlılığım və düşmənə olan nifrətim növbətçilik zamanı ayıq-sayıq olmağıma kömək edir."

Cəbhə bölgəsində xidmət etməkdən qürur duyduğunu bildirən Mehman bütün Azərbaycan gənclərini Vətənin keşiyində qeyrətlə, qorxmadan dayanmağa səsləyir. "Bu gün Azərbaycanı anası bilən hər kəs Ali Baş Komandan İlham Əliyevin əmrini gözləməli, əbədi və əzəli torpaqlarımız uğrunda son damla qanına qədər vuruşmalıdır. Mən və silahdaşlarım hər an döyüşə hazırıq", - əsgər Şirinov deyir.

Mehmanın nizam-intizamlı xidmətinə görə digərlərindən fərqləndiyini bildirən baş leytenant Babək Qasımov bildirir:

- Mehman vətənpərvər əsgərdir. O, bir ildən çoxdur ki, bu bölmədə xidmət edir. Verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirir. Döyüş ictimai-siyasi hazırlıq dərslərində fəal iştirak edir. Silahının taktiki-texniki xüsusiyyətlərini mükəmməl öyrənir. Belə vətənpərvər, bacarıqlı, qorxmaz və intizamlı övlad böyütdükləri üçün Mehmanın valideynlərinə təşəkkür məktubu göndərilib. Həmçinin, o, xidmətdə fərqləndiyinə görə yuxarı komandanlıq tərəfindən fəxri fərmanla təltif olunub.

**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

Ordu və cəmiyyət

# "Əsgərlərimizə yaradılan şərait bizi də çox sevindirir"

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, iyunun 26-da Silahlı Qüvvələr Günü münasibətilə bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü keçirildi.*



Qardaşım oğlu Namiq Bağırov Gəncədə yerləşən "N" hərbi hissəsində xidmət edir. Hərbi hissədə əsgərlərimizə yaradılan gözəl şərait bizi də çox sevindirir. Bu sevinci "Açıq qapı" günündə də yaşadıq. Hərbi hissənin əsgər yataqxanası, yeməkxanası - hər yer gözəldi. Məişət otaqlarına, tibb məntəqəsinə baş çəkdik. Ali Baş Komandanımız İlham Əliyev çıxışlarında Azərbaycan əsgərinin vətənpərvərliyini, qəhrəmanlığını xüsusi vurğulayır. Torpaqlarımızın işğaldan azad ediləcəyi günün həsrətindəyik. O gün tezliklə gələcək.

**Malik BAĞIROV,**
**Bakı şəhəri**

Əsgər Eltac Babayevi və əsgər yoldaşlarını ziyarət etməyə gəlmişəm. Bu il "Açıq qapı" gününün keçiriləcəyindən xəbərimiz var idi. Əsgərlərimiz ən müasir orduda xidmət edirlər. Ordumuzun gücü dövlət rəhbərimizin qayğısı nəticəsində gündən-günə artır. Mən bir neçə il bundan əvvəl Hərbi Dəniz Qüvvələrində xidmət etmişəm. Vətənimizə, xalqımıza sədaqətlə, vicdanla xidmət etmək hər bir əsgərin borcudur. Onların hərbi anda sadiq qalacaqlarına, xidmətlərini ayıq-sayıq aparacaqlarına, komandirlərinin verdiyi tapşırıqları vaxtında yerinə yetirəcəklərinə inanıram.

**Vüsal İSMAYILOV,**
**Ağcabədi rayonu,**
**Hindarx kəndi**





Hacıqabul rayonunun Meynaman kəndində anadan olmuşam. Musiqi təhsilim var. Xalq mahnılarımızı, muğamlarımızı daha çox sevirəm. Hərbi xidmətə gəlməmiş muğam müsabiqələrinin iştirakçısı olmuşam. Müəllimlərim Azərbaycanın xalq artistləri Alim Qasımov, Zabit Nəbizadə olublar. Hərbi xidmətimi başa vurduqdan sonra musiqi təhsilimi davam etdirəcəyəm. Hərbi hissəmizdə keçirilən Novruz şənliklərində, Yeni il, Ramazan və Qurban bayramlarında, "Açıq qapı" günlərində şəxsi heyət qarşısında çıxışlar edirəm. Onlar oxuduğum hər mahnını alqışlayırlar. Ən böyük arzum musiqi beşiyimiz Şuşada qələbə bayramında hərbçilərimiz qarşısında oxumaqdır.

**Əsgər**
**Pünhan PİRİYEV,**
**Gəncə şəhəri**

# Ordumuz - qürurumuz



"Açıq qapı" günündə "N" hərbi hissəsində valideynlərlə yanaşı, dövlət təşkilatlarının, ictimai birliklərin nümayəndələri, veteranlar da iştirak edirdilər.

Üz-gözündən sevinc, qürur hiss olunan bir nəfərin əsgərlərlə, valideynlərlə söhbət etməsi diqqətimi cəlb etdi. Öyrəndim ki, orduya böyük sevgisi olan bu şəxs Hacı Zeynalabdin Tağıyev qəsəbə Ağsaqqallar Şurasının sədri Mirzə Əzimovdur. Hərbi hissədə keçirilən tədbirlərdə yaxından iştirak edir.

Onu daha yaxından tanımaq üçün kəlmələşirik. Öyrənirəm ki, Mirzə müəllim ehtiyatda olan kapitandır, müharibə veteranıdır. Birinci Qarabağ müharibəsində Laçın, Ağdam, Kəlbəcər, Ağdərə, Füzuli istiqamətlərində vuruşub. Belə bir gündə hərbçilərin, valideynlərin yanında olmağı özünə mənəvi borc bilib. Zamanında Sovet ordusunda xidmət etmiş şura sədri bildirdi ki, övladım doğma Vətənimizdə hərbi xidmətdə olub, bununla fəxr edirəm. "Belə tədbirlərdən hər dəfə xoş hisslərlə, razılıqla ayrılıram. Belə tədbirlərin keçirilməsi çox təqdirəlayiq, bəyənilən hadisədir. Valideynlər övladlarının xidmət yerləri, gündəlik məişət şəraiti ilə yaxından tanış olurlar. Əsgər yataqxanasındakı təmizliyi, hamam-camaşırxanadakı səliqə-sahmanı görürlər. Yeməkxanada mətbəxə baş çəkirlər. Burada milli xörəklərimizin qadın aşpazlar tərəfindən hazırlanması valideynlərə könül xoşluğu verir."

Əslində, "Açıq qapı" günlərində valideynlərin, yaxın və doğmaların hərbi hissələrə baş çəkməsi, əsgərlərlə görüşərək qayğıları ilə maraqlanması, döyüşçülərimizə dəyərli tövsiyələr verməsi onları daha ürəklə xidmət etməyə, öz komandirlərinin verdikləri tapşırıqları can-başla yerinə yetirməyə ruhlandırır. Döyüşçülərimiz bir daha dərk edirlər ki, onlar Vətənimizin keşiyində dayanır, ana-bacılarımızı, öz əzizlərini qoruyurlar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ordunun formalaşmasına, güclənməsinə göstərdiyi diqqət və qayğı sayəsində bu gün Azərbaycan qüdrətli orduya malikdir. Ordumuz müasir silahlarla və hərbi texnikalarla təmin edilib", - deyir müsahibim. "Keçirilən hərbi paradlarda biz dəfələrlə bunun şahidi olmuşuq. Aprelin əvvəllərində ermənilərin irimiqyaslı təxribatlarının qarşısını alarkən ordumuz gücünü göstərdi. Ordumuzun aprel zəfəri hər kəsdə ruh yüksəkliyi yaratdı. Qəhrəman döyüşçülərimizin adları dillərdən düşmür. Neçə-neçə körpəyə Samid, Raquf, Fərid ... adları qoyulub. Xalqımız öz mərd, qorxubilməz övladları ilə fəxr edir.



Bu gün hər bir gəncimiz hansı amal və məqsəd uğrunda xidmət etdiyini, mübarizə apardığını dərk edir. Vətənin müdafiəsində şərəf və vicdanla dayanır. Yüksək mənəviyyata malik gənclərimiz işğal altında olan yurd-yuvalarımızı azad etmək həsrətiylə yaşayırlar. Bu isə qələbənin yaxında olduğuna inamdır.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**N.PƏNAHOVUNDUR**

*Nəzəriyyədən praktikaya*

# Mənəvi-psixoloji hazırlıq döyüş təminatının tərkib hissəsidir

*Xalqımızın çoxillik hərb tarixinə nəzər salsaq, görərik ki, ilk növbədə Azərbaycan xalqı özünün yüksək mənəvi-əxlaqi keyfiyyətləri, vətənpərvərliyi, Vətənə xidmət borcuna sədaqətilə seçilib. Hərb elmi ilə məşğul olan alimlər vuruşma zamanı döyüşçülərin mənəvi hazırlığını onun döyüşə hazırlığının əsas amili olmasını çoxdan sübut etmişlər. Ermənistan-Azərbaycan münaqişəsi zamanı gedən döyüşlər bir daha şəxsi heyətin mənəvi-psixoloji hazırlığının, onun döyüş ruhunun artırılmasını daim ön plana çəkməyin vacibliyini sübut etdi.*

Ümummilli lider Heydər ƏLİYEV:

*Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır. Məhz bu keyfiyyətləri özündə cəmləşdirən, əks etdirən Azərbaycan Ordusunun döyüşçüsü ordumuzu möhkəmləndirə bilər və hər an qələbəyə nail ola bilər.*



Mənəvi-psixoloji hazırlıq hərbi qulluqçulara təsir prosesi kimi onlarda xidməti-döyüş hərəkətlərinin modelinin psixi surətlərinin yaradılması, psixoloji hazırlığın formalaşması və möhkəmləndirilməsi məqsədi daşıyır.

Mənəvi-psixoloji hazırlığın mahiyyətini başa düşmək üçün təsir dairələrinə ayırmaq vacibdir. Məsələn, təlim zamanı döyüşçülər tərəfindən vərdişlər qazanılır, biliklər əldə edilir, gözlənilən əməliyyatlar barədə təsəvvürlər yaranır. Atalar yaxşı deyib ki, təlimdə tər tökülsə, döyüşdə qan tökülməz.

Mənəvi-psixoloji hazırlıq zamanı şəxsi heyətdə müxtəlif şəraitlərdə davranış qaydaları və vərdişlər əldə edilir, şəxsi heyətin emosional əhatəliliyi və yeni şəraitə uyğunlaşması baş verir.

Şəxsi heyətin təlim-tərbiyəsi zamanı qismən mənəvi-psixoloji hazırlığın inkişafı ilə yanaşı, komandirlər tərəfindən psixoloji hazırlığın özü həyata keçirilir, xidmət və döyüş şəraiti barədə təsəvvürlər yaranır və ona uyğunlaşma baş verir, ekstremal şəraitlərdə düzgün qərar çıxartmağa imkan verən bacarıq möhkəmləndirilir, təhlükəli vəziyyətlərdə özünü tənzimləmə təcrübəsi əldə edilir və s.

Mənəvi-psixoloji təsir nəticəsində şəxsi heyət müxtəlif şəraitlərə uyğun davranış vərdişləri əldə edir, şəxsiyyətin düzgün emosional reaksiyası və yeni şəraitə uyğunlaşması təkmilləşdirilir.

Mənəvi-psixoloji hazırlığın əsas göstəriciləri aşağıdakılardır:

- hərbi qulluqçuların komandirlərə, silahlara və texnikaya inamı;
- şəxsi heyətin uğurlu xidməti, döyüş fəaliyyəti zamanı sabit psixoloji durumu, yüksək əhval-ruhiyyəsi;
- hərbi qulluqçuların baş verə biləcək təhlükələrə qarşıdurma bacarığı, psixi və fiziki təsirlərə dözümü, müxtəlif şəraitlərdə döyüş fəallığını saxlama imkanı;
- şəraitin tez və dəqiq qiymətləndirilməsi, düzgün qərarların qəbul edilməsi və ona uyğun hərəkət etmək, lazım gələrsə, bu hərəkətləri tənzimləmə bacarığı və vərdişləri;
- müxtəlif şərait və vəziyyətlərdə yüksək sayıqlığın saxlanılması.

Hissələrin döyüş təcrübəsi göstərir ki, hərbi qulluqçularla gündəlik döyüş hazırlığı məşğələlərinin aparılmasında döyüş fəaliyyətinin psixoloji modelinin formalaşması xüsusi əhəmiyyət kəsb edir.

Xidməti-döyüş fəaliyyətinin (nəzarət-buraxılış məntəqəsində xidmətin aparılması, hərbi əməliyyatda iştirak, xüsusi obyektlərin mühafizəsi və s.) psixoloji modeli döyüşçünün şüurunda eşitdiklərinin, gördüklərinin, etdiklərinin və göstərəcəyi fəaliyyətin surətidir, təsviridir. Ona görə də komandirlər və onların şəxsi heyətlə iş üzrə müavinləri şəxsi heyətin mənəvi-psixoloji hazırlığı işinin təşkilində, gündəlik fəaliyyətlərində səylərini aydın, başa düşülən döyüş əməliyyatlarının təsviri modelinin formalaşmasına istiqamətləndirməlidirlər.

Bütün bunlarla yanaşı, döyüşçülərdə yalnız döyüş əməliyyatlarının təsviri modelinin yaradılması mənəvi-psixoloji təminat məsələlərinin tam həlli üçün kifayət deyildir. Əsgərin döyüş zamanı düzgün hərəkət etməsi onda yaradılan təsəvvürlərin həqiqətə nə dərəcədə uyğun olmasından da çox asılıdır. Bunun üçün döyüşçü təlimlər (gecə atışları, xüsusi şəraitdə döyüş fəaliyyətləri və s.) zamanı mürəkkəb vəziyyətlərdə xüsusi məşqlər etməli, daha dolğun psixoloji təsəvvürə malik olmalı, ekstremal vəziyyətlərdən düzgün çıxmağı bacarmalıdır.

Təcrübə göstərir ki, qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün aşağıda göstərilən üsulları tətbiq etmək məqsədəuyğundur:

- nəzəri üsul (öyrətmə, inandırma, başa salma və s.) əsasən gələcək hərəkətlərin - döyüşlərin aydın modelinin formalaşmasına xidmət edir (mühazirələr, söhbətlər və s. vasitələrlə);
- praktiki üsul (təlimlərdə, məşqlərdə, stress doğuran təhlükəli vəziyyətlərdə özünü dərketməyə və özünü tənzimləməyə) xidməti-döyüş modelinin (hücum, müdafiə əməliyyatı və s.) formalaşmasına və möhkəmləndirilməsinə xidmət edir.

Praktiki üsul xüsusi trenajorlarda, təlim mərkəzlərində hərəkətləri və məşqləri; xüsusi manevrlərin - su hövzələrinin, dağıntıların, hasarların və s. keçilməsi ilə əlaqədar fiziki və idman hərəkətlərini; dərketmə, emosional və iradi keyfiyyətlərin məqsədyönlü formalaşması üçün psixoloji təlimlərin keçilməsini; hərbi kollektivlərin möhkəmləndirilməsi, psixoloji uyğunluğun, anlaşmanın formalaşdırılması üçün sosial-psixoloji məşqləri və s. özündə ehtiva edir.

Komandirlər tərəfindən aparılan mənəvi-psixoloji hazırlıq tədbirlərinin səmərəliliyi:

a) xidməti-döyüş fəaliyyətinin şəxsi heyətə əvvəlcədən nəzəri cəhətdən izah edilməsi;

b) düşmənlə qarşıdurmanın psixoloji modelləşdirilməsi müxtəlif hərbi hissələrdə (bölmələrdə) mənəvi-psixoloji hazırlığın məzmununun peşəkar-taktiki əsaslandırılması;

c) məşqlərin və təlimlərin gedişi zamanı təhlükəsizliyin təmin edilməsi;

d) hərbi qulluqçuların fərdi-psixoloji xüsusiyyətlərinin qeydiyyatı kimi prinsiplərin gözlənilməsindən və onlara əməl olunmasından çox asılıdır.

Gündəlik döyüş hazırlığı prosesində şəxsi heyətin mənəvi-psixoloji hazırlığı, hər bir dərsdə döyüşçülərə psixoloji hazırlığın müəyyən elementlərinin aşılanması, onların inkişafı, bir qayda olaraq, dərslərin keçirilməsi planına salınmalıdır. Məsələn, qarşıda duran döyüşlərin aydın təsəvvürünün yaradılması üçün taktiki-xüsusi hazırlıq dərsləri zamanı:

- dərsin gedişində - şəxsi heyətin hərbi hissənin texnikası və silahları ilə tanış edilməsi, Silahlı Qüvvələrdə öz xidmətilə qürur hissinin tərbiyə olunması;
- psixoloji möhkəmlənmənin gedişində - texnikanın və silahların imkanlarının, yüksək peşəkarlıq və mənəvi-psixoloji keyfiyyətlərin əyani şəkildə aşılanması;
- təlimlər zamanı çətin hava şəraitində gecə və gündüz yüksək tempin saxlanması; təlimin gedişində taktiki vəziyyətin tez bir zamanda dəyişməsi, atıcı silahlardan döyüş və boş patronla atmaqla; manevrlər yaratmaqla, zəhərlənmiş əraziləri keçməklə, yanğınla mübarizə aparmaqla; şərti "düşmənlə" atışmaqla hərbi qulluqçuların ehtimal olunan psixoloji reaksiyalarının proqnozlaşdırılması və s. qarşıya məqsəd qoyulur.

**Polkovnik
Həbib MƏMMƏDOV,
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

# Səbailli məktəblilər üçün Qusarda yay düşərgəsi yaradılıb





Səbail rayon İcra Hakimiyyəti və Müdafiə Nazirliyinin birgə təşəbbüsü ilə Qusar rayonundakı "N" hərbi hissəsində hərbi vətənpərvərlik təmayüllü "Gənc Heydərçilər" istirahət düşərgəsi yaradılıb.

Rayon icra hakimiyyətindən AZƏRTAC-a bildiriblər ki, düşərgəyə yola salınacaq uşaqlar, onların valideynləri və orta məktəblərin rəhbərlərinin iştirakı ilə görüş keçirilib.

Görüşdə icra hakimiyyətinin başçısı Eldar Əzizov rayonda yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkili istiqamətində görülən işlər, həyata keçirilən sosial layihələr barədə məlumat verib. O qeyd edib ki, Qusar şəhərində təşkil olunan düşərgənin fəaliyyəti üçün hər cür şərait yaradılıb. Bütün bunlar yeniyetmə və gənclərimizin sağlam böyüməsi, Vətənə məhəbbət, Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyə olunmasına yönəldilmiş siyasətin bir hissəsidir.

Tədbirdə vurğulanıb ki, düşərgəyə yollanacaq məktəblilər öz təhsilləri, ictimai işlərdə fəallıqları, idman və digər sahələrdə fərqləndikləri üçün seçiliblər. Onlar bu istirahət düşərgəsində oxuduqları məktəb kollektivlərini layiqincə təmsil etməlidirlər.

Düşərgədə uşaqların təlim-tərbiyə işləri ilə rayonun orta məktəblərində çalışan idman və ibtidai hərbi hazırlıq müəllimləri, Müdafiə Nazirliyinin zabitləri, çavuş və əsgərləri məşğul olacaqlar.

Burada uşaqların istirahətinin daha maraqlı və yaddaqalan edilməsi üçün məşğələlər hərbi nizamnaməyə uyğun tərzdə hərbçilər tərəfindən keçiriləcək, şagirdlərin Qusarın görməli yerlərinə, Olimpiya kompleksinə, meşələrə, rayonun tarixi guşələrinə gəzintiləri təşkil ediləcək.

Çıxış edən valideynlər yeniyetmələrin mənalı və yaddaqalan yay istirahəti üçün yaradılan şəraitə görə minnətdarlıqlarını bildiriblər.

*Düşüncələr*

# Quruculuq yollarında...

Jurnalistika fakültəsinə daxil olanda da, elə ondan sonrakı illərdə də heç ağlıma gəlməzdi ki, əynimə əsgər forması geyinib çiyinlərimdə zabit paqonları gəzdirərək doğma ordumuzun sıralarında xidmət edəcəyəm.

1992-ci il dekabrın ortaları idi. Havalar çox soyuq keçirdi. Müharibə alovu getdikcə daha geniş əraziləri əhatə edirdi.

"Əsgər" qəzetində xidmətə başladıqdan sonra cəbhə bölgəsinə ilk ezamiyyətim 1992-ci il dekabrın 31-nə - ilin son gününə, illərin qovuşduğu gecəyə təsadüf etdi. Maşınlar cəbhə üçün zəruri olan avadanlıqlarla yüklənib hazır olandan sonra axşama doğru yola çıxdıq. Hospitalda müalicəsini başa vurmuş bir neçə zabit də bizimlə cəbhə bölgəsinə qayıdırdı. Onlar artıq sağalıb özlərini yaxşı hiss edirdilər. Əllərinə silah götürüb düşmənlə yarımçıq qalmış döyüşlərini davam etdirə bilərdilər. Qollarında yenilməz güc, qüvvət var idi.

Yeni ili yollarda qarşıladıq. Ağdama gecə saat dörddə çatdıq. Hərbi hissə məktəbdə yerləşirdi. Boş sinif otaqlarının birində gözümüzün acısını aldıq. Hərbi hissə komandiri səhər tezdən bizi qəbul etdi, yaxından tanış oldu. Zabit Bəxtiyar Abdullayevin qolu sarıqlı idi. Söhbət edəndə öyrəndik ki, dünənki döyüşdə yaralanıb. Yarası ağır olsa da, öz yerindəydi, hərbi hissəni idarə edir, zabit və əsgərlərə döyüş tapşırıqları verirdi.

Hərbi hissənin qərargahında çox vaxt itirməyib cəbhə xəttinə yola düşdük. Zabit Bəxtiyar Abdullayev Fərrux dağının ətəyində yerləşən mövqelərə getməyi məsləhət bildi.

Əvvəlcə Əlağalılar kəndini düşməndən qoruyan əsgərlərlə görüşdük.

Evləri sakinsiz qalmış Əlağalılar kəndinin məhəllələrini dolaşıb Xaçın çayının üstündəki körpüdən keçərək adını televiziya ekranlarından tez-tez eşitdiyim Fərrux dağının ətəyindəki Yuxarı və Aşağı Cinli kəndlərinə gəldik. Döyüşçülər danışırdılar ki, neçə vaxtdır Fərrux dağı uğrunda qanlı döyüşlər gedir. Fərrux dağı Xankəndinə açılan qapıdır.

Kəndi qoruyan əsgərlərlə söhbət etdiyimiz vaxt atəş səsləri eşitdik. Qısa vaxtda sakitlik pozuldu. Bir müddət əvvəl susan silahlar "dilə" gəldi. Güclü atəş səsləri yeri-göyü lərzəyə gətirdi. Qarabağ müharibəsində ilk atəş səslərini bax burada - göylərə baş çəkən Fərrux dağının ətəyində eşitdim.İndi o görüşlərdən yaddaşımda çox xatirələr qalıb. Cəbhə bölgələrində gəzdiyim, gördüyüm kəndləri indiki kimi xatırlayıram. Bu sətirləri yazdıqda o günlər, o yerlər kino lenti kimi gözlərim önündən gəlib keçir.

1993-cü ilin oktyabrından xidmətimi "Azərbaycan Ordusu" qəzetində davam etdirdim. Yenə də cəbhə bölgələrini gəzib, döyüşçülərlə görüşürdüm. O vaxtlar ordumuz yenicə yaranırdı, peşəkar zabitlərin azlığı açıq-aydın hiss olunurdu. Komandir vəzifəsini yerinə yetirən zabitlərin əksəriyyəti ehtiyatdan çağırılmışdı.



İllər keçdikcə orduda vəziyyət yaxşılığa doğru dəyişirdi. Əvvəllər ayrı-ayrı qruplara xidmət edən silahlı birləşmələr ləğv edilmişdi. Onun yerində nizam-intizamlı, vahid komandanlığa tabe olan hərbi hissələr yaradılırdı.

1993-cü ilin sonları, 1994-cü ilin əvvəllərində bütün cəbhə boyu düşmənə qətiyyətli zərbələr endirildi. Ciddi müqavimətlə qarşılaşan erməni qəsbkarları ələ keçirdikləri Azərbaycan torpaqlarından geri çəkilməyə başladılar. Füzuli istiqamətində bir neçə gün ərzində düşmən 40 kilometrdən artıq məsafədə geri oturduldu. Rayonun bir çox kəndləri, həmçinin Horadiz qəsəbəsi erməni işğalçılarından azad edildi. Qazanılan qələbələr zabit və əsgərlərin döyüş ruhunu daha da artırırdı. Onlar düşmənin üstünə daha inamla atılırdılar. Addım-addım torpaqlarımız erməni işğalçılarından azad olunurdu.

1994-cü il mayın 12-də cəbhədə atəşkəs elan olundu. Cəbhə xəttində atəş səsləri kəsildi, toplar susdu. Neçə ildən bəri vuruşan, döyüşən ordunun şəxsi heyəti dərindən nəfəs aldı…

Atəşkəsdən sonra ordu quruculuğu istiqamətində ulu öndər Heydər Əliyev tərəfindən çox inamlı və qətiyyətli addımlar atıldı. Məqsədli islahatlar qısa vaxtda öz bəhrəsini verdi. Qüdrətli, güclü və yenilməz bir ordu quruldu.

Bu gün dahi rəhbərin layiqli davamçısı Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqəti nəticəsində Silahlı Qüvvələrimiz daha da inkişaf edir. Doğma ordumuz ən müasir silah-sursatla, hərbi texnikalarla təmin olunur. Orduda dəmir nizam-intizam hökm sürür. İndi ordumuzun sıralarında yüksək döyüş təcrübəsi olan zabitlər xidmət edirlər. Öz təcrübələrini böyük həvəslə tabeliklərində olan əsgərlərə öyrədirlər.

Xalq ordumuzun gücünü, qüdrətini aprel döyüşlərində açıq-aydın gördü. Zabit və əsgərlərimiz aprelin ilk günlərində erməni hücumlarının qarşısını alarkən tarixin səhifəsinə böyük hərflərlə həkk olunmağa layiq qəhrəmanlıqlar göstərdilər. Erməni qəsbkarları güclü əks-həmlə qarşısında dayana bilmədi, silah-sursatını atıb qaçmağa məcbur oldu.

Xalqımız bu gün güclü, qüdrətli ordusu ilə fəxr edə bilər.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Dağıstanda xüsusi əməliyyat zamanı 7 silahlı məhv edilib



Rusiya xüsusi təyinatlı qüvvələri Dağıstanda keçirdiyi antiterror əməliyyatı zamanı 7 silahlını məhv edib. Əməliyyat zamanı xüsusi təyinatlılardan biri ölüb, 3-ü yaralanıb. Rusiya Milli Antiterror Mərkəzinin məlumatına görə, öldürülən silahlıların yoldaşlarının axtarışı Dağıstanın mərkəzində dağlıq və meşəlik ərazilərdə davam etdirilir.

### ABŞ-da 3 polis əməkdaşı öldürülüb



İyulun 8-də gecə təhlükəsizlik qüvvələri tərəfindən iki qara dərilinin öldürülməsinə qarşı keçirilən mitinq zamanı üç polis əməkdaşı güllələnib.

Mitinq zamanı hündürlükdə yerləşən mövqedən 10 nəfər polis əməkdaşına snayperlə atəş açılıb. Nəticədə 3 polis əməkdaşı öldürülüb, 2 nəfər hazırda əməliyyat olunur və daha 3 nəfərin vəziyyəti ağırdır. Digər 2 polis isə yüngül yaralanıb.

### İranda zəlzələ baş verib



İranda 5.0 bal gücündə zəlzələ baş verib.

Yeraltı təkanların episentri Bəndər-Abbas liman şəhərindən 56 kilometr şimalda olub. Yeraltı təkanların ocağı 10 km dərinlikdə yerləşib.

Dağıntı və zərərçəkənlər barədə məlumat verilmir.

### Türkiyədə helikopter qəzası: 7 nəfər həlak olub, 8 nəfər yaralanıb



Türkiyənin Girəsun vilayətində göyərtəsində yüksək vəzifəli hərbçilərin və onların ailə üzvlərinin olduğu hərbi helikopter qəzaya uğrayıb.

Son məlumata görə, qəza nəticəsində helikopterdəki 15 nəfərin 7-si həlak olub, 8-i yaralanıb. Yaralılar xəstəxanaya çatdırılıb. Qəzaya qeyri-sabit hava şəraitinin səbəb olduğu bildirilir.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

*Ovqat*

# Vətən boyda sevgi



"Uşaqlar gələcəyimizdir" deyiblər. Biz də belə düşünürük...

Uşaqları necə sevməyəsən?..

Uşaq dünyasının sadəlövhlüyünə necə heyrətlənməyəsən, duruluğuna, saflığına necə vurulmayasan?

Uşaqların oyunlarının məzmunu dəyişilibsə, düşüncə tərzinin də dəyişməsinə təəccüblənmək düzgün deyil...

Uşaqlar dərk elədiklərindən deyil, dərk eləmədiklərindən danışmağı, bu haqda soruşmağı daha çox sevirlər. Leyla kimi...

Leylanın üç yaşı var. Şirin, dilli-dilavər uşaqdı. Hər şeyə maraq göstərir. Qayğısız uğaqlığını yaşayır. Nənə-baba söhbətlərini maraqla dinləyir. Kitablara böyük marağı var. Hələ düz-əməlli dərk eləmədiyi nağıl kitablarını həvəslə vərəqləyir, eşitdiklərini yaddaşına köçürür.

Televizorda himnimiz səslənincə o da ifa edir. Sözlərin mahiyyətini bilməsə də, düzgün tələffüz eləməsə də, oxuyur. Sağ əlini ürəyinin üstünə qoyub oxuyur. O da Azərbaycan deyir, o da Azərbaycana "Üç rəngli bayrağınla məsud yaşa" deyir...

Bayrağımızın rənglərini də bilir, o rənglərin ifadə elədiyi mətləbləri də. Necə qürurlanmayasan?..

Nənəsiylə gəzintiyə çıxıbmış. Dayanacaqda gördüyü əsgərə baxıb, baxıb və ... sevgilərlə "Azərbaycan əsgəri!" deyə qışqırıb, ona sarı dartınıb. Sevinib. Çox sevinib. Azərbaycan əsgərini şəkildə görürdü, televizorda görürdü. İndi yaxınlığındaydı. Harayı dayanacaqdakıların hamısını duyğulandırıb; 3 yaşlı Leyla Azərbaycan əsgərini əmisi bilir, dayısı bilir, əzizi bilir. Azərbaycan əsgəri onun qıvrım saçlarını oxşayıb...

Əsgər görüb ki, yaşlılar, ağsaqqallar, ağbirçəklər öz yerində, Azərbaycan əsgərini uşaqlar da sevir. Bu yaşda uşaqların da əzizidi. Belə bir müqəddəs sevgilərlə əhatələnən əsgər, təbii ki, Vətəni göz bəbəyi kimi qoruyacaq!..

Uşaqlar belə böyüyür. Vətənin nə olduğunu, bayrağın nə olduğunu bilmədən, dərk eləmədən sevir Vətəni. Vətəni qoruyanları sevdiyi qədər də onun qoruduğu məmləkəti sevir. Bu sevgi müqəddəs sevgidi, bu sevgi bəşəri sevgidi...

Babasının "Sənə nə alım, balam?" sorğusuna Leyla "Azərbaycan bayrağı al", deyir. Oyuncaq istəmir, bayraq istəyir. Yəqin televizorda görüb: Leyla bayrağımızı öpüb bağrına basır...

Nüsrət Kəsəmənlinin bir şeirini xatırlayıram: "Daha nağıllara inanmıram mən". Deyəsən, uşaqlar da daha nağıllara inanmır. Ata-ana, nənə-baba söhbətlərinin işığında nağılları gerçəkləşdirəsi (və gerçəkləşdirən!) oğullara (əsgərlərə!) inanırlar. Bu işıq torpağa, Vətənə ad olan işıqdı; bu günün uşaqları işıq gələn tərəfə meyillidi. Bu meyil arzuya, istəyə dönəcək, bu işıq zamanında Vətən boyda bir sevgiyə dönəcək.

3 yaşlı Leyla da Azərbaycan bayrağını sevir... Bayrağımız Leylaların da bayrağıdı!..

**Şəbnəm BEHBUDZADƏ**

# Tərtərdə tank əleyhinə sursat aşkar olunub



Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) mütəxəssisləri iyulun 7-də iki əkin sahəsinə, 2 partlayış yerinə, 1 otlaq sahəsi və 1 təhlükəli əraziyə baxış keçiriblər. Nəticə etibarilə gün ərzində 5 min 500 kvadratmetr ərazi yoxlanıb.

ANAMA-nın mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ağdam rayonunun Əhmədağalı kəndində partlamış hərbi sursatların - top mərmisinin və 9M22U - Qrad raketinin qalıqları, Tərtər rayonunun Şıxarx kəndində 1 ədəd partlamamış tank əleyhinə qumbara (PQ-7) aşkar olunub. Hərbi sursat daşınması mümkün olduğu üçün Mərkəzi Məhvetmə Ərazisinə göndərilib.

Ümumilikdə agentlik tərəfindən aprelin 7-dən iyulun 7-dək Zərdab, Tərtər, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Goranboy, Tovuz, Qazax, Ağstafa, Samux, Göygöl, Şəmkir, Cəlilabad, Ucar, Astara rayonlarında, Mingəçevir, Sumqayıt, Gəncə və Bakı şəhərlərində 621 ev və həyətyanı sahə, 2 hərbi hissə, 2 kənd qəbiristanlığı, 5 kənd orta məktəbi, 1 tibb məntəqəsi, 1 metal anbarı, 30 ferma, əkin sahələri və 1 çaxır zavodu ərazisinə baxış keçirilmiş, 1 577 ədəd partlamamış hərbi sursat, 14 ədəd piyada əleyhinə mina (PMN), 3 ədəd piyada əleyhinə mina (POMZ-2), 1 ədəd piyada əleyhinə mina (OZM-72) və 15 ədəd tank əleyhinə mina aşkar olunaraq zərərsizləşdirilib.

Hazırda agentlik tərəfindən yaradılmış xüsusi təyinatlı mobil çevik qruplar minaaxtaran itlərin dəstəyi ilə təmas xəttində yerləşən kəndlərdəki evlərlə yanaşı, məktəblər və digər obyektlərin yerləşdiyi ərazilərdə əməliyyatları davam etdirir.



*Silahlar*

# Yeni "super silah"ın sınağı keçiriləcək

Fox News telekanalı ABŞ-ın müdafiə məsələləri üzrə mütəxəssisi Allison Berrinin məlumatına istinadən bildirib ki, bu yaxınlarda gəmilərin birində yüksək gücə malik silahın - "relsotron"un dənizdə sınağı keçiriləcək. "Relsotron" özündə elektromaqnit rels topunu ehtiva edir və cərəyan keçirən mərmiləri yüksək sürətlə məhv etmə qabiliyyətinə malikdir. Verilən məlumata görə, yeni silah yüksək hərbi texnologiyaları qabaqlaya bilər. Yeni silahın hazırlanması bu iki qüdrətli dövlət ABŞ-ın silahlanmasında yeni nailiyyət və dünyada qüvvələr balansının dəyişilməsi kimi qiymətləndirilir.

ABŞ Hərbi Dəniz Qüvvələri bu silah üzərində on il bundan qabaq işləməyə başlayıblar. Onun hazırlanmasına 1.5 milyard dollar vəsait xərclənib.

**Hazırladı:
Svetlana YUSUBOVA,
"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan nümayəndəsi Bleddə XX Vidmar Memorialının gümüş mükafatçısı olub



Sloveniyanın Bled şəhərində görkəmli yuqoslaviyalı şahmatçı Milan Vidmarın xatirəsinə həsr olunmuş ənənəvi beynəlxalq turnir başa çatıb.

Ukraynalı qrossmeyster Andrey Volokitin 9 mümkün xaldan 7 xal toplayaraq yarışın qalibi olub. Azərbaycan təmsilçisi Arkadi Naydiç yarım xal, almaniyalı Liviu-Diter Nisipyanu qalibdən bir xal geri qalıblar.

Xatırladaq ki, dairəvi sistem üzrə keçirilən XX Vidmar Memorialında on qrossmeyster iştirak edib.

## "Avro-2016": Fransa milli komandası finala yüksəlib



İyulun 7-də futbol üzrə Avropa çempionatının ikinci yarımfinal oyunu keçirilib.

Marselin "Velodrom" stadionunda keçirilən matçda Almaniya və Fransa milli komandaları qarşılaşıblar.

Qarşılıqlı hücumlar şəraitində keçən görüşün birinci hissəsinə əlavə edilmiş ikinci dəqiqədə Fransa yığmasının üzvü Antuan Qrizman 11 metrlik cərimə zərbəsi ilə hesabı açıb. Matçın birinci hissəsi bu hesabla başa çatıb - 1:0.

Qarşılaşmanın ikinci hissəsində Qrizman özünün və komandasının ikinci qoluna imza atıb. Bu dəfə o, almaniyalı qapıçı Manuel Noyerin kobud səhvindən sonra topu "bundestim"in qapısından keçirib.

Beləliklə, görüş Fransa millisinin 2:0 hesablı qələbəsi ilə başa çatıb və komanda finala yüksələrək Portuqaliyanın rəqibi olub.

Final görüşü iyulun 10-da Parisin "Stad de Frans" stadionunda keçiriləcək.

## "Neftçi İdman Klubu"nun karateçiləri Avropa çempionatında dörd medal qazanıblar



Ukraynanın Çerkassı şəhərində karatenin WJKA versiyası üzrə beşinci Avropa çempionatı keçirilib.

Ölkəmiz çempionatda 10 karateçi ilə təmsil olunub ki, onlardan da 5-i "Neftçi İdman Klubu"nun yetirmələridir.

Klubun idmançıları yarışı 3 qızıl və 1 bürünc medalla başa vurublar. Sədi Namazov (21-39 yaş) kata yarışlarında rəqib tanımayaraq Avropa çempionu olub. Eyni yaş qrupunda mübarizə aparan Emin Məmmədov kumite növündə qızıl, Araz Babayev isə bürünc medal qazanıb.

Digər karateçimiz Röyal Haqverdiyev isə 16-17 yaşlı idmançıların kumite yarışında fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

## Vasif Durarbəyli ABŞ-da beynəlxalq turnirdə 1-7-ci yerləri bölüşüb



Filadelfiyada şahmat üzrə 44-cü açıq turnir başa çatıb.

9 mümkün xaldan 7 xal toplayan macar Qabor Papp, əlavə göstəricilərə görə, turnirin qalibi olub. Azərbaycan təmsilçisi Vasif Durarbəyli, moldovan Viktor Boloqan, gürcü Tamaz Gellaşvili, rusiyalı Aleks Şimanov, israilli İlya Nijnik və Gil Popilski qaliblə eyni nəticə göstəriblər. On bir oyunçu yarım xal geri qalıb.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 418
Nüsxə 4660